ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (2), ss 1017-1027

Academic Journal of History and Idea, 2019, 6 (2), pp 1017-1027

Araştırma Makalesi
Original Article

# 19. Yüzyılın İlk Yarısında Derbent'in Sosyo-Politik Yaşamı (KAK[*]nun Verilerine Dayanarak)

**Mahire Azizova**[**]

**ORCID: 0000-0003-2793-7664**

**Öz**

Makalede Rus imparatorluğunun Derbenti işqal etdikden sonra bu bölgede yapdığı yeniden yapılandırma ve inşa sürecinden bahs edilmektedir. Azerbaycan'ın eski bir şehri olan Derbent, 21 Haziran 1806'da Çarlık tarafından işgal edildi ve bölge yönetimi yeni imparatorluk politikasına adapte olmaya başladı. Bunun için Rus imparatorluğu bölgede bir dizi önlemler uygulamaya başladı. Böyle bir önlemlerden biri de Derbent'in yeniden yapılandırılmasıydı. Derbent'in yeniden yapılandırılması ve sosyo-politik hayatı hakkında çok ilginç bilgiler Kafkasya Arkeoloji Komisyonu'nun verilerine yansımıştır. Derbent şehrinin yeniden yapılandırılması, zamanla toplumsal refahın yükselmesine sebep olacak, onun için de nüfusun kendi emlaklarını kurban vererek şehrin imarı çalışmalarına katılımı meşru sayılıyordu. Şehrin ana meydanının yapılması için meydanın kenarındaki bazı evlerin yıkılması gerekiyordu. Ana meydanda şehir mahkemesi, hazine ve sığınak ve şehrin altındaki meydanda dükkanlar olmalıydı. Derbent'in yeniden inşası sırasında şehri birbirinden ayıran duvarın kaldırılmasının ardından Çarlık boş bölgelere ermeniler ve yahudileri yerleştirdi. Yapılan çalışma kentsel nüfus artışına katkıda bulundu. Ancak bu artış, kentin etnik yapısını değiştirmeye ve yerel müslümanların sayısını azaltmaya yönelik ciddi bir girişime hesaplanmışdı.

**Anahtar kelimeler:** Rus İmparatorluğu, Kafkas Komutanlığı, Derbent Kazası, Kentsel Nüfus, Yerleşim

**Gönderme Tarihi: 22/04/2019** **Kabul Tarihi:25/06/2019**

---

[*] *Kafkas Arkeografik Komisyonu*

[**] Doktora Öğrencisi, *Azerbaycan Milli İlimler Akademisi A.A.Bakıhanov adına Tarih Enstitüsü "Genel tarih" şubesi doktora öğrencisi, E-posta: mahiraaziz@mail.ru ,*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

# Social and Political life of Derbent City at First Half of 19th Century (Based on AKAQ Mateprial)

**Mahire Azizova***
**ORCID: 0000-0003-2793-7664**

**Abstarct**

This article about reconstruction and renovation reforms implementation by Russian empire in Derbent after its occupation. Derbent, an ancient city of Azerbaijan, was occupied by Tsarism on June 21, 1806, and the region's administration began to be adapted to the new policy of the empire. Therefore, the Russian Empire began to implement a series of measures in the region. One of those measures was the reconstruction of Derbent city. Very interesting information about Derbent's reconstruction and socio-political life is reflected in the Acts of the Caucasus Archaeological Commission. The Russians beleived that rebuilding of the city would eventually lead to rise of publicwelfare, so it was legitimate to involve the population in the city's renovation work even by sacrificing their property. It was intended to demolish some houses on the edge of the square in order to arrange the main square of the city. In the main square there should be a city court, a treasure and a security, and shops should be in the square at the bottom of the city. Following the removal of the wall that separated the city, during the reconstruction of Derbent, Tsariat Russia settled the Armenians and the Jews in the empty parts of the city. The work done has contributed to the urban population growth. However, this increase was calculated with a serious attempt to change the ethnic composition of the city and to reduce the number of local Muslims.

**Keywords:** Russian Empire, Caucasian Commando, Derbent Uyezd, Urban Population, Relocation

**Received Date: 22/04/2019** **Accepted Date: 25/06/2019**

* *Doktora Öğrencisi, Azerbaycan Milli İlimler Akademisi A.A.Bakıhanov adına Tarih Enstitüsü "Genel tarih" şubesi doktora öğrencisi, E-posta: mahiraaziz@mail.ru ,*

# Социально-политическая жизнь города Дербент в первой половине 19 века (на основе материалов АКАК).

**Резюме**

В статье речь идет о проводимых Русской империей перестройке и обустройстве в регионе после оккупации Дербента. Дербент, древний город Азербайджана, был захвачен царской Россией 21 июня 1806 года, и администрация региона стала адаптироваться к новой политике империи. Для этого Российская империя начала осуществлять ряд мер в регионе. Одной из таких мер была реконструкция Дербента. Очень интересная информация о реконструкции и социально-политической жизни Дербента отражена в Актах Кавказской археологической комиссии. Русские считали, что восстановление города в конечном итоге приведет к росту общественного благосостояния, поэтому было законным, чтобы население принимало участие в ремонтных работах города, жертвуя своим имуществом. Предполагалось, создание главной площади в городе снеся дома находящиеся на расстоянии в нескольких саженях от краю площади. На главной площади должен быть городской суд, банк и жандармерия, а магазины на площади созданной у подножия города. При перестройки Дербента на появившиеся пустые места после снесения стены, которая отделяла город царская Россия пересели армян и евреев. Проделанная работа способствовала росту городского населения. Однако это увеличение было рассчитано с серьезной попыткой изменить этнический состав города и сократить число местных мусульман.

**Ключевые слова:** Российская Империя, Кавказское командование, Дербентский уезд, Городское население, Переселение

**Получено: 22/04/2019** **Принято: 25/06/2019**

## Giriş

Cənubi Qafqazın Rusiya tərəfindən işğalınadək Azərbaycanın hərbi-siyasi, iqtisadi, sosial və mədəni həyatında aparıcı rol oynamış Dərbənd ölkəmizin bəşər mədəni xəzinəsinə bəxş etdiyi unikal abidələrdən biridir. Dərbənd və ətrafı 1722-ci ildə I Pyotr tərəfindən işğal edilərək, Rusiya imperiyasının tərkibinə qatılmış, 1735-ci il martın 10-da Səfəvilər dövləti və Rusiya arasında bağlanmış Gəncə müqaviləsi ilə Səfəvi dövlətinə qaytarılmışdı. 1796-cı ildə Rusiya imperatriçəsi II Yekaterinanın Cənubi Qafqazı ələ keçirmək kimi strateji niyyətindən doğmuş V. Zubovun yürüşü zamanı Dərbənd rus qoşunları tərəfindən yenidən işğal edilmiş və 1 il sonra, II Yekaterinanın ölümü ilə əlaqədar rus qoşunlarının geri çəkilməsi nəticəsində bu əsarətə son qoyulmuşdur. 1806-cı ilin iyun ayında isə Qafqazdakı rus qoşunlarının baş komandanı general İ.V. Qudoviçin rəhbərliyi ilə Dərbəndin işğalı bu qədim və əzəli Azərbaycan şəhərinin və ətrafının birdəfəlik Rusiya tərkibinə qatılması ilə nəticələnmişdir. Azərbaycanın qədim şəhəri olan Dərbənd 1806-cı il 21 iyunda çarizm tərəfindən işğal edildikdən sonra bu bölgənin idarəçiliyinin yeni – imperiya siyasətinə uyğunlaşdırılması məsələsi gündəmə gəldi. Bu məqsədlə Rusiya imperiyası bölgədə bir sıra tədbirlər həyata keçirməyə başladı. Belə tədbirlərdən biri də Dərbənd şəhərinin abadlaşdırılması, Dərbənd limanının inşası istiqamətində görülən işlər idi.

Qafqaz komandanlığı Dərbənd qəzasının əhalisini rus hakimiyyətinə münasibətinə görə dörd qrupa bölürdü: 1) rus hakimiyətinə yetərincə itaətkar olan, rus qaydalarına vərdiş etmiş, adətlərinə görə ruslara kifayət qədər yaxın olanlar; 2) ruslara kifayət qədər itaətkar olan, ancaq hələ də Rusiya qanunlarının ruhunu tam başa düşməyənlər; 3) ruslara yarımçıq itaət edən, öz qaydaları ilə yaşayaraq yalnız hərbi qüvvənin nəzarəti olduqda tabeçilik göstərənlər; 4) xarakterinə görə yarımvəhşi olan və çoxsaylı rus hərbi qüvvəsinin onların arasında peyda olmasından sonra tabe olanlar.[1] Birinci qrupa Dərbənd qəzasının 16 mindən artıq evdən ibarət əhalisinin 540 evdən ibarət Ulus mahalının daha sülhsevər xarakterli əhalisi daxil edilmişdi; onlar rus mülki idarəçiliyinə çoxdan alışmış hesab olunurdular. 3981 ailədən ibarət Tabasaran və Qaytaq əhalisi ikinci qrupa daxil edilirdi, yəni onların rus qaydalarına tam alışmadıqları güman olunurdu. Cənubi Tabasaran azad

[1]"Dokladnaya zapiska komanduyuşego voyskami i upravlyayuşego grajdanskoyu çastyu v Prikaspiyskom kraye, gen.-l.kn.Orbeliani, kn. Baryatinskomu, ot 14-go oktyabrya 1856 g.", *AKAK*, t. 12, Tiflis, 1904, 424.

icmaları, Qaytağın dağlıq icmaları üçüncü qrupa aid edilirdi; onların bəzisinin ruslara az miqdarda vergi ödədiyi bildirilirdi.[2]

Dərbənd şəhərinin ictimai-siyasi həyatı barədə çox maraqlı məlumatlar Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında öz əksini tapmışdır. Qafqazdakı rus qoşunlarının komandanı A.P. Yermolov bu barədə 21-ci piyada diviziyanın komandiri, general-mayor K.K. fon Krabbeyə məktubunda qeyd edirdi ki, Dərbənddə hələ də şəhər əhalisinin siyahıya alınması aparılmayıb, şəhərdə dözülməz vəziyyət hökm sürür, yollar zibilliklə doludur, yalnız sənətkarların və tacirlərin şəhərdə yaşamaq hüququnun olmasına baxmayaraq heç bir yoxlama aparılmadan hər kəs, hətta əkinçilər də yaşamaq üçün şəhərə buraxılır.[3]

A.P. Yermolov Dərbənd komendantına bütün bu çatışmazlıqların aradan qaldırılmasını, şəhər əhalisinin siyahıya alınmasına başlamağı, aidiyyatı olmayan adamların şəhərdən çıxarılmasını əmr etməklə şəhərin yeni plan əsasında abadlaşdırılmasına yönəlmiş təkliflərini də verirdi. A.P. Yermolov tərəfindən təsdiq olunaraq, mühəndis podpolkovnik Danilova verilmiş yeni plana əsasən, şəhərin Narınqaladan dənizə tərəf olan hissəsində varlı adamların məskunlaşdırılması təklif olunurdu. Baş meydanda şəhər məhkəməsi, xəzinə və mühafizə yerləşməli idi. Burada piştaxtalar üçün yer ayrılmalı, yəhudi və erməni məhəllələri müəyyən olunmalı idi. Ordunun şəhərdə yerləşdirilməsi zamanı özbaşına evlərin zəbt olunması nəticəsində əhali arasında narazılıq hallarının baş verməməsi üçün xüsusi komissiya təşkil olunması nəzərdə tutulurdu.[4] Tezliklə bu istiqamətdə işlərə başlanılır. Bu işlərin həyata keçirilməsi zamanı əhalinin bir hissəsinin şəhərdən kənara köçürülməsi, bəzi yerlərdə evlərin sökülməsi planlaşdırılırdı. Bu zaman əhalinin baş verə biləcək narazılığının qarşısının alınmasına yönəlmiş bəzi tədbirlər nəzərdə tutulmuşdu. Qala komendantının səlahiyyətlərini icra edən mayor fon Aşeberq tərəfindən hazırlanmış tədbirlər planında göstərilirdi ki, Kurinsk piyada alayının qərargahının inşa edilməsi üçün lazım olacaq daşın əksər hissəsi evləri sökülmək üçün nəzərdə tutulan sakinlərdən pulla alınmalıdır. Bu məqsədlə şəhər starşinalarına daşın sındırılması sifarişini qəbul etmək qadağan olunmuşdu. Bu tədbir nəticəsində evləri köhnə olan əhalinin əksər hissəsi onların sökülməsinə razı olur. Bununla onlar hesab edirdilər ki, onsuz da qəzalı vəziyyətdə olan evlərin sökülməsindən sonra daşın və digər yararlı materialın satışından müəyyən qədər pul əldə edəcəklər, ona görə də bu zaman o qədər də zərər görməyəcəklər. İkinci tərəfdən bu

---

[2] Dokladnaya zapiska..., 424-425.

[3] "Predpisaniye gen. Yermolova gen.-m. Fon-Krabbe, ot 5-go Marta 1824 g.", *AKAK*, t. 6, ç. 2, Tiflis, 1875, 108-109.

[4] Predpisaniye gen. Yermolova,... 108-109.

zaman evlərin söküntüsü icma tərəfindən həyata keçirildiyindən onlar həm də söküntü xərclərindən də azad olurdular. Lakin qeyd etmək lazımdır ki, əksər hissəsinin hətta öz evinin söküntüsünü aparmaq imkanında olmayan yerli əhalininin hakimiyyətin bu təklifinə razılıq verməsi daha çox ziyana düşmək qorxusundan qaynaqlanırdı; sakinlər evlərinin sökülməsinə razı olmayacaqları təqdirdə, sonradan bu güzəştlərdən də məhrum ola biləcəklərindən ehtiyatlanırdılar. Fon Aşeberq hesab edirdi ki, şəhərin yenidən qurulması zaman keçdikcə ictimai rifah kəsb edəcək, ona görə də əhali öz əmlaklarını qurban verməklə bu işdə iştirak etməli idilər. Bu məntiqlə də o, şəhərin abadlaşdırılması işinə əhalinin bu şəkildə cəlb edilməsini qanuni sayırdı.[5] Fon Aşeberqin planını bəyənən A.P. Yermolov fon Krabbeyə məktubunda bu barədə yazırdı: "Şəhərdə baş meydanın təşkil olunmasını, meydanın kənarında bir-neçə sajen məsafədə yerləşən evlərin sökülməsi fikrini bəyənirən. Meydanların, enli küçələrin salınması zamanı əhalinin sıx şəkildə yaşaması maneçilik törədəcək və buna görə də onların aşağıdakı qaydada köçürülməsini təklif edirəm: bir saylı siyahı üzrə evləri yararsız halda olanlar, şəhər kənarında torpaq sahəsi və bağları olanlar, arabaçılıq edənlər və sənaye ilə məşğul olanlar yeni yerə köçürülsün. Onlardan yaxşı ev tikmək imkanı olanlara Dubar adlanan yerdə sökülmüş evlərinin müqabilində şəxsi torpaq sahəsi verilməli; heç bir sənət sahəsi ilə məşğul olmayıb, şəhərdə yarasız halda olan evindən savayı əmlakı olmayanlar iki saylı siyahı üzrə xəzinə kəndlərinə köçürülməli; müxtəlif yerlərdən şəhərə gələn, şəhərdə hər hansı bir məşğuliyyəti, şəxsi əmlakı olmayanlar üç saylı siyahı üzrə əvvəlki yaşayış yerlərinə köçürülməlidir. Lakin son iki kateqoriyadan olanlardan öz hesabına ev tikmək istəyənlərə forştad, yaxud da şəhərdə məqsədəuyğun yer ayrılmalıdır".[6] A.P. Yermolov şəhərin abadlaşdırılması ilə bağlı da öz təkliflərini verir. Baş komandan dükanların şəhərin aşağı hissəsində təşkil olunmuş meydanda qurulmasını, ət və un cərgələrini də orada yerləşdirməklə, şəhərə gətirilən müxtəlif məmulatları – yeyinti məhsullarını, meşə materiallarını və s. oraya yönəltməyi təklif edirdi. Onun təkliflərinə görə şəhərin aşağı hissəsində misgərlər və dəmirçilər yerləşdirilməklə, at və dəvə karvanları ilə şəhərə varid olanlar üçün yerlər qurulmalı idi.[7]

---

[5] "Raport gen.-m. Fon Krabbe gen. Yermolovu, ot 4-go avqusta 1824 g.", *AKAK*, t, 6, ç.2, Tiflis, 1875, 110.

[6] "Sobstvennoruçnoye predpisaniye gen. Yermolova gen.-m fon Krabbe, ot 23-go dekabrya 1824 g., *AKAK*, t. 6, ç. 2, Tiflis, 1875, 111-112.

[7] Sobstvennoruçnoye predpisaniye ..., 112.

Lakin şəhərin abadlaşdırılması işlərinə bir qədər sonra başlanılır. Şəhəri ayıran divarın götürülməsindən sonra əmələ gələn boş yerlərdə erməni və yəhudilər yerləşdirilir. 1848-1849-cu illərdə burada 5 verst və 100 sajen uzunluğunda su xətti çəkilir, 6 sajen dərinliyində hovuz tikilir. 1851-ci ildə Dərbənd şəhərində 2092 daş ev, 345 çiy kərpicdən tikilən ev var idi.[8] Müqayisə üçün qeyd edərdik ki, 1824-cü ilə dair məlumatda şəhərdə 1818 evin, 3 hamamın, hərbi hissəyə məxsus 2 yunan-roma (katolik), 1 erməni kilsəsinin və 15 məscidin olduğu göstərilir. [9]XIX əsrin 40-cı illərin sonlarında burada 370 daş, 24 taxta dükan fəaliyyət göstərirdi. [10]1848-ci ildə şəhərdə 500 nəfərlik pravoslav kilsəsinin tikintisinə başlanılmışdı 1853-cü ilin noyabrında istifadəyə verilən bu kilsənin tikintisi xəzinəyə 29446 gümüş rubl 88 qəpiyə başa gəlmişdi.[11]

Yerli əhali şəhərin ictimai həyatında kifayət qədər yaxından iştirak edirdi. Dərbənd şəhərinin müsəlman, erməni və yəhudi icmasının nümayəndələri tərəfindən yetim və kimsəsizlərə yardım etmək kimi xeyriyyə məqsədi ilə könüllü ianə toplanılırdı. Sənədlərdə göstərilir ki, 1856-cı ilin iyulunda şəhər komendantının səlahiyyətlərini icra edən Klugenaunun yanına gələn bu nümayəndələr həmin məbləğin xüsusi qeydiyyat kitabına salınmasını xahiş etmişdilər. Xeyriyyə məqsədilə müsəlmanların 1000 rubl, ermənilər 850 rubl topladığı, yəhudilərin isə ildə 60 rubl gəlir verən su mənbəyini verdiyi qeyd olunurdu.[112] Görülən işlər şəhər əhalisinin artımına təsir edirdi. Əgər 1810-cu il üçün Dərbənd şəhərində 3719 nəfər qeydə alınmışdısa (onlardan 3497 nəfər müsəlman şiə, 56-ı erməni, 166 nəfər isə yəhudi idi). Dərbənd qala komendantının səlahiyyətlərini icra edən mayor fon Aşeberqin 1824-cü ilin iyulun 16-da verdiyi məlumata görə şəhərdə artıq 11060 nəfər (5773 kişi, 5287 qadın), o cümlədən 10377 müsəlman (5407 kişi, 4970 qadın), 239 erməni (136 kişi, 103 qadın), 544 yəhudi (230 kişi, 214 qadın) yaşayırdı.[13]

Qeyd edək ki, ermənilər I Pyotrun Xəzərsahili bölgələrə yürüşündən sonra bura köçürülmüşdü. Zubovun Dərbənd yürüşü zamanı etdikləri xəyanətkar fəaliyyətləri nəticəsində rusların şəhərdən çəkilməsindən sonra Dərbəndi tərk etmək məcburiyyətində qalmış ermənilər 1806-cı ildə şəhərin ruslar tərəfindən işğalından sonra yenidən bura

---

[8] Ş.B. Ahmadov, “Derbent kak çentr torgovo-ekonomiçeskogo i kulturnogo sblijeniya narodov Severnogo Kavkaza v XVIII – pervoy polovine XIX vv.”, Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii*, posvyaşennoy 2000-letiyu g., Derbenta, Mahaçkala, 2015, 59-60.

[9] Raport gen.-m. Fon Krabbe..., 109-110.

[10] Ahmadov..., 59-60.

[11] “Otçet knyazya M.S. Voronçova za 1849-1851 godı”, *AKAK*, t. 10, Tiflis, 1885, 830.

[12]“Raport gen.-l. kn. Orbeliani gen. –l. kn.Bebutovu ot 31-qo iyulya 1856 g.” *AKAK*, t. 11 Tiflis, 1888, 698.

[13] Raport gen. –m. Fon Krabbe..., 109-110.

qayıtmışdılar.[14] 1831-ci il Dərbənd şəhərinin kameral təsvirinə görə Dərbənd şəhərində kişi cinsinə mənsub 4747 tatar (Azərbaycan türkü – M.Ə.), 256 yəhudi, 142 erməni, qadın cinsinə mənsub 248 yəhudi, 118 erməni olmaqla, tatar qadın əhalini nəzərə almadan ümumilikdə 5511 nəfər yaşayırdı.[15] 1832-ci il məlumatına görə Sabnova kəndi və forştadla birlikdə Dərbənddə 1795 ev, kişi cinsindən olmaqla 4741 tatar (Azərbaycan türkü-M.Ə.), 256 yəhudi, 142 erməni, cəmi 5139 nəfər yaşayırdı.[16] 1843-cü il məlumatına görə isə Dərbənd qəzasında 33880 nəfər (18241 kişi, 15639 qadın) qeydə alınmışdı. Həmin ilə dair məlumata görə bilavasitə şəhərdə (Dərbənd şəhəri, forştadt və Sabnova ilə birlikdə) 2762 ailə, 11278 nəfər qeydə alınmış və onlardan 9572 nəfəri azərbaycanlı, 284-ü erməni, 871-i yəhudi, 3-ü alman, 2-i yunan idi. Göründüyü kimi rus işğalından 30 ildən artıq bir müddət keçməsinə, rusların şəhərin etnik tərkibinin dəyişdirilməsi istiqamətindəki ciddi-cəhdlərinə baxmayaraq, azərbaycanlılar ümumi əhalinin 84,8%-i təşkil edirdi.[17] 1850-ci ilə dair məlumata görə Dərbənd şəhərində 12332 nəfər, Dərbənd qəzasında isə 50551 nəfər qeydə alınmışdı ki, Dərbənd şəhər əhalisinin 1118 nəfəri müsəlmanlar, 861-i yəhudilər, 302-ni ermənilər, qəza əhalisinin isə 49443 nəfərini müsəlmnlar, 1108 nəfərini yəhudilər təşkil edirdi. 1858-ci ilə dair məlumata görə Dərbənd şəhərinin əhalisinin 13000, Ulus mahalının əhalisinin isə 3000-ə qədər olduğu göstərilir.[18] 1859-cu il siyahıya almasına görə isə Dərbənd şəhərində 6686-ı kişi, 6784-ü qadın olmaqla 13470 nəfər hər iki cinsdən olan əhali yaşayırdı.[19]

---

[14] "Otnoşenie gen. Tormasova k d. T. S. Gurevu, ot 2-go avgusta 1810 g.", *AKAK*, t. 4, Tiflis, 1870, 37-43; A.A. Hacıyev, "XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin əhalisinin etnik tərkibi". *AMEA A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərlərinin Xüsusi buraxılışı*, № 40, (2012): 267.

[15] İ.M. Mamedova, "Kameralnoye opisaniye goroda Derbenta" kak odin iz istoçnikov v izuçenii naseleniya goroda". *Aktualnıe problemı nauki i texniki*. Sbornik nauçnıh statey II mejdunarodnoy nauçno-praktiçeskoy konferençii 15 iyunya 2010 g., g. Kizlyar, RD, çast I, Kizlyar, 2010, 98.

[16] İ.M. Mamedova, "Naseleniye i hozyaystvennaya deyatelnost jiteley Derbentskogo vladeniye po dannım RGVİA (XVIII-XIX vv.)" Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii*, posvyaşennoy 2000-letiyu g., Derbenta, Mahaçkala, 2015, 255.

[17] Hacıyev,..., 269.

[18] "Zapiska Glavnogo Ştaba Kavkazskoy Armii o preobrazovanii prikaspiyskiy upravleniy na Kavkaze, iyul 1958 g.", *AKAK*, t. 12, Tiflis, 1904, 647.

[19] G.N. Gasanov, "Ob etniçeskom sostave naseleniya goroda Derbent v XIX v.", Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii*, posvyaşennoy 2000-letiyu g., Derbenta, Mahaçkala, 2015, 96.

## Nəticə

Nəticə olaraq qeyd etmək lazımdır ki, rus hakimiyyət orqanlarının şəhərin yenidənqurulması, abadlaşdırılması, Dərbənd limanının inşası istiqamətində həyata keçirdiyi tədbirlər müsbət hal olmaqla yanaşı, bölgənin sosial-iqtisadi dirçəlişinə səbəb olmuşdu. Lakin bununla yanaşı, həyata keçirilən tədbirlər çarizmin yerli müsəlman əhaliyə münasibətdəki müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Aparılan yenidənqurma işlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, bu tədbirlər yerli əhalinin ənənəvi ictimai-siyasi həyat tərzinin çar Rusiyasının müstəmləkəçilik sisteminə uyğunlaşdırılması və qeyri-müsəlman əhalini bu bölgədə məskunlaşdırmaqla şəhər əhalisinin etnik tərkibinin dəyişdirilməsi məqsədinə xidmət etmişdir.

**İstifadə Olunmuş Mənbə və Ədəbiyyatın Siyahısı**

AHMEDOV, Ş.B., "Derbent kak çentr torgovo-ekonomiçeskogo i kulturnogo sblijeniya narodov Severnogo Kavkaza v XVIII – pervoy polovine XIX vv.", Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii,* posvyaşennoy 2000-letiyu g. Derbenta, Mahaçkala, (2015): 3-61.

HACIYEV, A.A., "XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin əhalisinin etnik tərkibi", *AMEA A. Bakıhanov adına Tarih İnstitutunun Elmi Əsərlərinin Hüsusi buraxılışı,* № 40, Bakı, (2012): 265-274.

GASANOV, G.N., "Ob etniçeskom sostave naseleniya goroda Derbent v XIX v.", Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii,* posvyaşennoy 2000-letiyu g, Derbenta: Mahaçkala, 2015, 94-98.

"Dokladnaya zapiska komanduyuşego voyskami i upravlyayuşego grajdanskoyu çastyu v Prikaspiyskom kraye, gen.-l.kn.Orbeliani, kn. Baryatinskomu, ot 14-go oktyabrya 1856 g". *AKAK,* t. 12, Tiflis, 1904, 423-427.

"Zapiska Glavnoqo Ştaba Kavkazskoy Armii o preobrazovanii prikaspiyskiy upravleniy na Kavkaze, iyul 1958 g," *AKAK,* t. 12, Tiflis, 1904, 644-649.

MAMEDOVA, İ.M., "Kameralnoye opisaniye goroda Derbenta" kak odin iz istoçnikov v izuçenii naseleniya goroda". *Aktualnıye problemı nauki i texniki*. Sbornik nauçnıh statey II mejdunarodnoy nauçno-praktiçeskoy konferençii.15 iyunya 2010 g., g. Kizlyar, RD, çast I, Kizlyar, Derbenta: Mahaçkala, 2010, 96-102.

MAMEDOVA, İ.M., "Naseleniye i hozyaystvennaya deyatelnost jiteley Derbentskogo vladeniya po dannım RGVİA (XVIII-XIXvv.)" Materialı mejdunarodnoy nauçnoy konferençii *Derbent v istoriçeskom proçesse Kavkaza i Rosii,* posvyaşennoy 2000-letiyu g., Derbenta: Mahaçkala, 2015, 51-258.

"Otnoşeniye gen. Tormasova k d. T.S. Gurevu, ot 2-go avqusta 1810 g.", *AKAK*, t. 4, Tiflis, 1870, 37-43.

"Otçet knyazya M. S. Voronçova za 1849-1851 gg.", *AKAK*, t. 10, Tiflis, 1885, 875-904.

"Predpisaniye gen. Yermolova gen.-m. Fon-Krabbe, ot 5-go marta 1824 g.", *AKAK*, t. 6, ç. 2, Tiflis, 1875, 108-109.

"Raport gen.-l. kn. Orbeliani gen. –l. kn.Bebutovu ot 31-go iyulya 1856 g." *AKAK*, t. 11, Tiflis, 1888, 698.

"Raport gen.-m. Fon Krabbe gen. Yermolovu, ot 4-go avgusta 1824 g.", *AKAK*, t. 6, ç. 2, Tiflis, 1875, 109-111.

"Sobstvennoruçnoye predpisaniye gen. Yermolova gen.-m fon Krabbe, ot 23-go dekabrya 1824 g.", *AKAK*, t. 6, ç. 2, Tiflis, 1875, 111-112.